**Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli, və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli, qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsi ilə əlaqədar **qərara alıram:**

1. «Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli, və 1377 nömrəli 2001-ci II 12 noyabr tarixli, qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində öz səlahiyyətləri hüdudlarında bu Sərəncamdan irəli gələn məsələləri həll etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 may 2002-ci il
№ 920

Azərbaycan Respublikası Prezidentinin
2002-ci il 11 may tarixli, 920 nömrəli Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli, və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli, qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair**
**TƏDBİRLƏR PLANI**[1]

| № | Tədbirlərin adı | İcraya məsul | İcra müddəti |
|---|---|---|---|
| 1 | Terror hərəkətlərinin maliyyələşdirilməsinin qabaqlanması və bunun qarşısının alınması; vəsaitlərin terrorçuluğun törədilməsi üçün istifadə olunması niyyəti ilə və ya istifadə olunacağını bilə-bilə istənilən üsullarla, bilavasitə və ya dolayısı ilə qəsdən verilməsinə və ya toplanmasına görə cinayət məsuliyyətinin tətbiq edilməsi üçün tədbirlərin görülməsi | Maliyyə Nazirliyi, Mərkəzi Bank, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti, Vergilər Nazirliyi, Baş Prokurorluq, Milli Təhlükəsizlik Nazirliyi, Daxili işlər Nazirliyi, Ədliyyə Nazirliyi | Mütəmadi |
| 2 | Terror hərəkətləri törədən və ya törətməyə cəhd göstərən, yaxud terror hərəkətlərinin törədilməsində kömək göstərən və ya digər formada iştirak edən şəxslərin mülkiyyətində və ya onların nəzarəti altında olan təşkilatların, eləcə də belə şəxslərin və təşkilatların adından və ya onların göstərişi ilə fəaliyyət göstərən digər fiziki və hüquqi şəxslərin vəsaitlərinin və digər maliyyə aktivlərinin və ya iqtisadi resurslarının təcrid edilməsi üçün tədbirlərin görülməsi | Maliyyə Nazirliyi, Mərkəzi Bank, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti, Vergilər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| 3 | Terror hərəkətləri törədən və ya törətməyə cəhd göstərən, yaxud onların törədilməsində kömək göstərən və ya digər formada iştirak edən şəxslərin mülkiyyətində və ya onların nəzarəti altında olan təşkilatların, eləcə də belə şəxslərin adından və ya onların göstərişi ilə fəaliyyət göstərən digər fiziki və hüquqi şəxslərin mənafeyi üçün istifadə olunan hər hansı vəsaitlərin, maliyyə aktivlərinin və ya iqtisadi resursların verilməsinin, yaxud maliyyə xidmətləri və ya digər müvafiq xidmətlərin bilavasitə və ya dolayısı ilə göstərilməsinin Azərbaycan Respublikasının ərazisində hər hansı şəxslərə və təşkilatlara qadağan edilməsi üçün tədbirlərin görülməsi | Maliyyə Nazirliyi, Mərkəzi Bank, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti, Vergilər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi | Mütəmadi |
| 4 | Terror hərəkətləri ilə əlaqələri olan təşkilatlara və ya şəxslərə hər hansı formada yardım göstərməkdən çəkinilməsi, o cümlədən terrorçu qruplara üzvlər cəlb olunmasının qarşısının alınması və terrorçulara silah göndərilməsi kanallarının ləğv edilməsi üçün əlavə tədbirlərin görülməsi | Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi [2] | Mütəmadi |
| 5 | Terror hərəkətləri törədilməsinin qarşısını almaq üçün, o cümlədən informasiya mübadiləsinin köməyi ilə başqa dövlətləri qabaqcadan xəbərdar etmək yolu ilə zəruri tədbirlərin görülməsi | Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti Daxili İşlər Nazirliyi | Mütəmadi |
| 6 | Terror hərəkətlərini maliyyələşdirənlərə, planlaşdıranlara, dəstəkləyənlərə və ya törədənlərə sığınacaq verməkdən imtina edilməsinin təmini üçün tədbirlərin görülməsi | Daxili İşlər Nazirliyi. Milli Təhlükəsizlik Nazirliyi | Mütəmadi |
| 7 | Terror hərəkətlərini maliyyələşdirənlərin, planlaşdıranların, buna kömək göstərənlərin və ya terror hərəkətlərini törədənlərin Azərbaycan Respublikasının ərazisindən başqa dövlətlərə və ya onların vətəndaşlarına qarşı belə məqsədlərlə istifadə etməsinə yol verilməməsi üçün zəruri tədbirlərin görülməsi | Milli Təhlükəsizlik Nazirliyi, , Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq [3] | Mütəmadi |
| 8 | Terror hərəkətlərinin maliyyələşdirilməsində, planlaşdırılmasında, hazırlanmasında və ya törədilməsində, yaxud terror aktlarının dəstəklənməsində iştirak edən hər hansı şəxsin məhkəmə məsuliyyətinə cəlb edilməsi və belə şəxslər barəsində görülən digər zəruri tədbirlərlə yanaşı, bu cür terror hərəkətlərinə görə məsuliyyətin ciddiliyinin lazımi tərzdə təmin edilməsi üçün tədbirlərin görülməsi | Baş Prokurorluq, Milli Təhlükəsizlik Nazirliyi, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi | Mütəmadi |
| 9 | Terrorçuluğun maliyyələşdirilməsi və ya dəstəklənməsi ilə bağlı cinayət işlərinin ibtidai araşdırılması zamanı antiterror koalisiyasına daxil olan ölkələrə hər cür kömək göstərilməsi | Baş Prokurorluq, Milli Təhlükəsizlik Nazirliyi, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| | | Dövlət Gömrük Komitəsi | |
| 10 | Səmərəli sərhəd nəzarətinin, şəxsiyyəti təsdiq edən sənədlərin və digər sənədlərin verilməsinə nəzarətin gücləndirilməsi, eləcə də həmin sənədlərin saxtalaşdırılmasını və ya qanunsuz istifadə olunmasını qabaqlamaq tədbirlərini həyata keçirməklə terrorçuların və ya terrorçu qrupların yerdəyişməsinin qarşısının alınması | Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, "AzAL" Dövlət Konserni, "Azəravtonəqliyyat" Dövlət Konserni, Dövlət Dəmir Yolu, Dövlət Xəzər Dəniz Gəmiçiliyi, Bakı Beynəlxalq Dəniz Limanı [4] | Mütəmadi |
| 11 | Azərbaycan Respublikasının qanunvericilik aktlarının Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli, və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli, qətnamələrindəki öhdəliklərə uyğunluğu öyrənilib zəruri təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Nazirlər Kabineti | 1 ay |
| 12 | Terrorçuluğa qarşı mübarizənin səmərəliliyinin artırılması, müvafiq dövlət orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə beynəlxalq təşkilatlar və xarici dövlətlər tərəfindən Azərbaycan Respublikasına bu sahədə yardım göstərilməsinə dair təkliflərin ümumiləşdirilib Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Nazirlər Kabineti | 1 ay |
| 13 | Terrorçuluqla əlaqədar beynəlxalq konvensiya və protokollara Azərbaycan Respublikasının qoşulması barədə təkliflərin təqdim edilməsi | Xarici İşlər Nazirliyi | 1 ay |
| 14 | BMT-nin Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, qətnaməsinin və 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli, qətnaməsinin 1-ci maddəsinin a, c və d bəndlərinin, 2-ci maddəsinin a, b, d, e və g bəndlərinin Ermənistan tərəfindən pozulduğuna, Ermənistan Respublikasının və Dağlıq Qarabağ separatçılarının beynəlxalq terrorçuluğun infrastrukturları ilə əlaqələrinə dair məlumatların faktoloji sübutlar şəklində hazırlanaraq Ermənistan Respublikasının terroru dəstəkləyən dövlət kimi tanınması üçün bilavasitə, yaxud tərəfdaş dövlətlərin yardımı ilə BMT-nin Təhlükəsizlik Şurasına, həmçinin digər beynəlxalq təşkilatlara müraciət edilməsi | Xarici İşlər Nazirliyi, Baş Prokurorluq, Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi | 1 ay |
| 15 | BMT-nin Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli, və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli, qətnamələrinin və Azərbaycan Respublikasının qoşulduğu terrorçuluq və onunla bağlı olan təhdidlərə qarşı mübarizə üzrə beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi haqqında məruzələrin BMT, həmçinin digər beynəlxalq təşkilatlara (ATƏT, | Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| | NATO, Avropa Şurası, Avropa Birliyi) təqdim edilməsi məqsədi ilə görülən işlər barəsində məlumatların müntəzəm olaraq Xarici İşlər Nazirliyinə göndərilməsi | | |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. Azərbaycan Respublikası Prezidentinin 9 yanvar 2004-cü il tarixli 12 nömrəli Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 19**)
2. Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2005-ci il tarixli 224 nömrəli Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 4, maddə 299**)
3. 21 dekabr 2009-cu il tarixli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı **(“Azərbaycan” qəzeti 25 dekabr 2009-cu il, № 287)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 21 dekabr 2009-cu il tarixli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı **(“Azərbaycan” qəzeti 25 dekabr 2009-cu il, № 287)** ilə “Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı”nın 1-ci, 2-ci və 3-cü bəndlərinin “İcraya məsul” sütununda “**Milli Bank**” sözləri “**Mərkəzi Bank, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti**” sözləri ilə əvəz edilsin, 5-ci, 7-ci, 8-ci və 9-cu bəndlərinin “İcraya məsul” sütununda “**Milli Təhlükəsizlik Nazirliyi**” sözlərindən sonra “**, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti**” sözləri əlavə edilsin, 15-ci bənddə “**Milli Bank**” sözləri “**Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti**” sözləri ilə əvəz edilmişdir.

[2] Azərbaycan Respublikası Prezidentinin 9 yanvar 2004-cü il tarixli 12 nömrəli Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 19**) ilə "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair" Tədbirlər planının 4-cü bəndində "**Milli Təhlükəsizlik Nazirliyi**" sözlərindən sonra "**,Dövlət Sərhəd Xidməti**" sözləri əlavə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2005-ci il tarixli 224 nömrəli Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 4, maddə 299**) ilə "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər planı"nın 4-cü bəndindən "**Hərbi Əks-kəşfiyyat Xidməti**" sözləri çıxarılmışdır.

[3] Azərbaycan Respublikası Prezidentinin 9 yanvar 2004-cü il tarixli 12 nömrəli Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 19**) ilə "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair" Tədbirlər planının 7-ci bəndində "**Milli Təhlükəsizlik Nazirliyi**" sözlərindən sonra "**, Dövlət Sərhəd Xidməti**" sözləri əlavə edilmişdir.

[4] Azərbaycan Respublikası Prezidentinin 9 yanvar 2004-cü il tarixli 12 nömrəli Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 1, maddə 19**) ilə "Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1368 nömrəli 2001-ci il 12 sentyabr tarixli, 1373 nömrəli 2001-ci il 28 sentyabr tarixli və 1377 nömrəli 2001-ci il 12 noyabr tarixli qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair" Tədbirlər planının 10-cu bəndində "**Milli Təhlükəsizlik Nazirliyi**" sözlərindən sonra "**, Dövlət Sərhəd Xidməti**" sözləri əlavə edilmişdir.